**May ayının 24-ü dəyərli insan, gözəl şair Kəmaləddin Qədimin doğum günüdü. Əziz dostumuzu, ilhamlı şairi təbrik edir, şeirlərini isə oxucuların ixtiyarına veririk.**

## GEDİŞİN NƏ GÖZƏLDİ...

Bir az asta gedən qız,
Bir az usta gedən qız.
Ay gözüm üstdə gələn,
Gözüm üstdə gedən qız
Gedişin nə gözəldi...

Al da gedir səninlə,
Şal da gedir səninlə.
Qalmır gözüm yol çəkə,
Yol da gedir səninlə
Gedişin nə gözəldi...

Nə acıq, nə kin qalır,
Nə ara sərin qalır.
Gör necə boş görünür,
Gör necə yerin qalır...
Gedişin nə gözəldi...

Ürək də odlanmasa,
Arxanca atlanmasa.
Ayrılıq sayılmasa,
Ayrılıq adlanmasa
Gedişin nə gözəldi...

Ruham, ruhdan oluram,
Bir quru can oluram.
Bu gedişlə sən məndən,
Mən günahdan oluram...
Gedişin nə gözəldi...

*14 may 2015*

## HƏLƏ DƏ "DUZA" GEDİRSƏN...

Bu qədər yaxınmı sənə
Yol belə qısa gedirsən...
Canımdan ayrılıb yenə
O zalım qıza gedirsən?..

Bu nə Kərəmlikdi belə,
Yesirdi ardınca Lələ.
Qayıda bilmirsən hələ,
Hələ də "duza" gedirsən...

Artıq iç də, dış da canım,
Qarrıyıbdı, qışdı, canım.
Bu nə əyin-başdı, canım,
Elə bil yaza gedirsən...

Özündən böyük bəlası,
Getmə gözümün qarası.
O qız çəkib qurtarası
Cəzamı, cəza, gedirsən?...

*12 may 2015*

## NƏ VAR QUŞ OLMAĞA ALLAHIN ALTDA...

Usta qanad çalıb, usta dolaşıb,
Nə var quş olmağa Allahın altda...
Hamıdan ucada, üstdə dolaşıb,
Nə var quş olmağa Allahın altda...

Atdan düşəsin yox, atdı deyilsən,
Ünvanlı deyilsən, addı deyilsən.
Kiminsə əlinin altda deyilsən,
Nə var quş olmağa Allahın altda...

Uçmağa göylərin yönü nə qədər,
İtməyə dumanı, çəni nə qədər.
Yetirir suyuna, dəninə qədər,
Nə var quş olmağa Allahın altda...

Kimsə sual verib, cavab gözləmir,
Günah ki hərləmir, savab gözləmir.
Sonda haqq gözləmir, hesab gözləmir,
Nə var quş olmağa Allahın altda...

Qonduğun kol mutlu, koğuş bəxtəvər,
Ağac yuvacığın-ağuş bəxtəvər.
Bəxtəvər başına a quş bəxtəvər,
Nə var quş olmağa Allahın altda...

Aç, yoğur, günahı kündəlik elə,
Elə, tövbəsini gündəlik elə.
Gəl də mənim kimi bəndəlik elə,
Nə var quş olmağa Allahın altda...

*10 may 2015*

## YAŞAMAQ XOŞ GƏLƏNDƏ...

Nə göydən gəlib, nə də
Gəzib yerdə tapmışam;
Bu dərd deyilən ki var
Düşüb dərdə tapmışam.

Quruca nəfəsmişəm,
Kökün gəzən səsmişəm.
Üstdə sim-sim əsmişəm,
Pərdə-pərdə tapmışam.

Nə kəm belə kəm gəlib,
Nə cəm belə cəm gəlib.
Gəlib, şər desəm gəlib,
Xeyri şərdə tapmışam.

Yaşamaq xoş gələndə,
Mən elə məni məndə
Tapmışam tuş gələndə
Tək-tək mərdə, tapmışam...

*8 may 2015*

## ASTARI ÜZÜNDƏN BAHA ÇIXACAQ...

Aldığım, verdiyim nəfəsi saysan
Çoxusu çəkdiyim aha çıxacaq.
Bülbülə yuvadı qəfəsi saysan,
Mənə də bir uçuq kaha çıxacaq...

Doğuşdan alnıma yazılı dərdim,
Gör necə nizamlı, düzülü dərdim...
Yenə havalanıb Füzuli dərdim
Bəxtəvər-bəxtəvər dağa çıxacaq...

Mən elə bir könlü paşanın biri,
Yüz yol danışdırın, yüz yol dindirin.
Bir ucu boynuma keçən kəndirin,
Axtarsan bir ucu şaha çıxacaq...

Canım, dahası var hələ, dahası,
Canımı hələ çox oda yaxası.
Keçəcək əlimə adam yaxası,
Əlimdən sevdiyim yaxa çıxacaq...

Bir gün gətirəcək əlim, gələcək,
Mənim də vurğunum, dəlim gələcək.
Gələcək, bir gözəl ölüm gələcək,
Astarı üzündən baha çıxacaq...

*3 may 2015*

## NƏ MUTLU O ÖMÜRƏ...

Əcəl gəlib qoymamış
Daş üstündə daş qala;
Adam son kəs özüylə
Bir az başa-baş qala...

Ölçə, biçə sözünü,
Əyrisini, düzünü.
Ağlamağa özünü
Gözlərində yaş qala...

Baxa, dörd yana baxa,
Baxa, son kəs darıxa...
Ağlı başından çıxa,
Bir azca sərxoş qala...

Tapa bir çıxış, gedə,
Edə yır-yığış, gedə.
Allaha da xoş gedə,
Bəndəyə də xoş qala...

Nə mutlu, nə mutlu, nə
O ömürə, o günə;
Ölə, yeri görünə,
Gedə, yeri boş qala...

2 may 2015

## BELƏ OLUR ADAM ÖMRÜ...

Yol üstündə, köç üstündə
Görmədikmi müdam ömrü?
Yiyəsizmi, vərəni var,
Alanı var qadam, ömrün.

Baxın, baxın azmı bəyəm
Ara-sıra gözə dəyən;
Vaxtından tez çiçəkləyən,
Şaxta vuran badam ömrü?..

Nə fərqi var kefin, dəmin,
Ya içində dərdin, qəmin.
Əlimdəmi, bir nəvəmin
Ömürünə qatam ömrü?..

Sübh gəlib, qürub getdilər,
Günmüydü görüb getdilər?
Gör nə tez sürüb getdilər
Anam ömrü, atam ömrü...

Bir az savab, günah ilə,
Bir az şeytan, Allah ilə
Keçib gedər...vallah, elə
Belə olur adam ömrü...

*27 aprel 2015*

## ÇATANDA ƏLİM ÖZÜMƏ...

Mən özümdən yıxılanam,
Qoy durum, gəlim özümə.
Elə, düşdüyüm kimi də
Qalxım, dikəlim özümə.

Elin-günün halı halım,
Zəhri zəhrim, balı balım.
Ən qiymətlim, ən bahalım,
Gövhərim, ləlim özüməm.

Həyan özüm, qənim özüm,
Suyum özüm, dənim özüm.
Özüməm düşmənim, özüm,
Vurğunum, dəlim özüməm.

Açam, gülümü görəsən,
Yanam, külümü görəsən.
Gəlib günümü görəsən
Çatanda əlim özümə...

*21 aprel 2015*



■ Kəmaləddin Qədim